*Rəhman Mirsaleh oğlu*



# Mübarizin məktubu

*Əfsanəvi milli qəhrəman Mübariz İbrahimovun əziz xatirəsinə*

**Qalın-qalın kitablardan,
Ağır-ağır kəlamlardan
Dəyərli bir məktub vardır,
Mübarizdən yadigardır.
Bu məktubun hər cümləsi
Qəhrəmanın ürək səsi,
Allahına ibadəti,
Vətəninə məhəbbəti.
”Canım anam, canım atam,
Muradıma gərək çatam.
Qurban dedik canımızı,
Halal edin haqqınızı.
Şəhid olsam ağlamayın,
Başa qara bağlamayın.”
Yazıb getdi düşmən üstə,
Qırıb tökdü dəstə-dəstə.
”Mən bir seyid nəvəsiyəm,
Haqq yolunda öləsiyəm.
Yurdumuzun dar günündə,
Vətən eşqi ürəyimdə,
Son döyüşə gedəcəyəm,
Vətən, sağ ol! deyəcəyəm.”
Yazıb getdi düşmən üstə,
Qırıb tökdü dəstə-dəstə.
”Məndən ötrü darıxmayın,
İbadəti unutmayın,
Sədəqəni bol-bol verin,
Mənə çoxlu dua edin.
Rəbbimizə güvənərik,
Biz Cənnətdə görüşərik.”
Yazıb getdi düşmən üstə,
Qırıb tökdü dəstə-dəstə.
Sevgiyə bax, imana bax!
İgid, cəsur oğlana bax!
Təkbaşına cəbhə yardı,
Kafirlərin canın aldı.
Bu məktubu oxuyanda,
Mübarizi biz ananda,
İnanırıq qələbəyə,
İşıqlı, xoş gələcəyə.**

Ədalət 2019.- 27 fevral.- S.8.